# *Sergey LEBEDEV:* "Azərbaycanda keçiriləcək seçkilərə hazırlıq işlərinin peşəkarlıqla aparılması təqdirəlayiqdir"

Fevralın 6-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov növbədənkənar prezident seçkilərinin müşahidəsi məqsədilə ölkəmizdə səfərdə olan Müstəqil Dövlətlər Birliyinin (MDB) baş katibi Sergey Lebedev ilə görüşüb.

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə MDB çərçivəsində gündəlikdə duran aktual məsələlər, əməkdaşlıq perspektivləri, habelə növbədənkənar prezident seçkilərinin müşahidəsindən irəli gələn məsələlər müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın MDB ölkələri ilə ikitərəfli, o cümlədən təşkilat çərçivəsində çoxtərəfli əməkdaşlığı uğurla davam etdirdiyini bildirərək, Birliyə üzvlüyümüzün sosial, mədəni, humanitar sahələrdə münasibətlərin daha da inkişafına töhfə verdiyini diqqətə çatdırıb.



Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri ilə bağlı görülən işlər barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir Ceyhun Bayramov sözügedən seçkilərin 30 ildən artıq müddətdən sonra işğaldan azad edilmiş ərazilərimizdə ilk dəfə keçirilməsi ilə əlamətdar olduğunu vurğulayıb.

Seçkilərin təşkili ilə bağlı bütün hazırlıq işlərinin görüldüyü, eyni zamanda beynəlxalq müşahidəçilərin, habelə xarici media nümayəndələrinin seçkiləri müşahidə etmələri üçün lazımi tədbirlərin həyata keçirildiyi diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov həmçinin ölkə xaricində yaşayan, habelə uzunmüddətli xarici ezamiyyətdə olan vətəndaşlarımızın seçki hüquqlarını həyata keçirməsi məqsədilə Xarici İşlər Nazirliyi tərəfindən aidiyyəti işlərin görüldüyünü, 37 ölkədə 49 seçki məntəqəsinin yaradıldığını bildirib.

Baş katib Sergey Lebedev Azərbaycanda keçiriləcək seçkilərin müşahidəsində iştirakla bağlı dəvətə görə təşəkkürünü bildirib, hazırlıq işlərinin peşəkarlıqla aparılmasının təqdirəlayiq olduğunu deyib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan.- 2024.- 7 fevral, № 26.- S.4.